# Ekologiya və təbii sərvətlər naziri ilə Latviyanın ölkəmizdəki səfiri COP29-a hazırlıqla bağlı fikir mübadiləsi aparıblar




**Latviya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Edqars Skuya ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanın bu il evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2024.- 23 fevral, № 41.- S.7.